

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 201 (23.613)

*20 noyabr 2020-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda Vətən müharibəsi şəhidləri böyük ehtiramla qarşılanıb





Vətən torpaqlarının azadlığı uğrunda canlarından keçərək qəhrəmanlıq tariximizin şanlı səhifələrini yazan şəhidlərimizin xatirəsi əbədi yaşayacaqdır. Onların döyüş yolu, göstərdikləri şücaət və vətənpərvərlik hər zaman gənc nəsil üçün nümunə olacaqdır. Ümummilli liderimiz Heydər Əliyevin də dediyi kimi: ***"Vətənin, ölkəmizin müdafiəsi uğrunda şəhid olmuş insanların adı daim qəlbimizdədir, onların xatirəsi bizim üçün əzizdir, onlar bizim üçün unudulmazdır".***

Noyabrın 19-da Naxçıvan Beynəlxalq Hava Limanında şəhidlərimizin qarşılanma mərasimi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Dövlət və hökumət nümayəndələri, Türkiyənin Naxçıvandakı Baş konsulu və şəhidlərin ailə üzvləri də tədbirdə iştirak etmişlər.

Şəhid olan hərbi qulluqçularımız Eyvazov İslam Həsən oğlunun, Məmmədov Araz Qəhrəman oğlunun, Məmmədzadə Pərviz Zahid oğlunun və Rüstəmov Basid İdris oğlunun üçrəngli bayrağımıza bükülmüş cənazələri hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ali Məclisin Sədri şəhidlərin xatirəsinə ehtiramını bildirdi.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, şəhid cənazələrinin önündən keçildi.

Şəhidlərin cənazələri doğulduqları şəhər və kəndlərə yola salındı.

Ali Məclisin Sədri şəhidlərin ailə üzvləri ilə görüşərək onlara başsağlığı verdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Şəhidlər ölməz, Vətən bölünməz!

Ordumuzun uğurlu əməliyyatları nəticəsində illərdir, qaysaq bağlayan yaramız olan Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. Qalibiyyəti dosta qürur, düşmənə ölüm gətirən ordumuz xalqımıza tarixin ən şanlı Qələbə gününü yaşatdı. O zaman ki Zəngilanda, Qubadlıda, Şuşada müqəddəs azan səsi, himnimiz səsləndi, ay-ulduzlu bayrağımız yüksəklərdə dalğalandı, illər öncə bu torpaqlar uğrunda canından keçən şəhidlərimizin nigaran qalan ruhları ağ göyərçinə dönüb azad Qarabağımızın səmasında qanad çaldı, yurdumuza boylandı, "Gözün aydın, Vətən!" – dedi. Nə zindan, nə qan Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşə atılan igidlərin qarşısını ala bildi. Qəhrəman oğullarımız öz həyatını xalqımızın azadlığı, ərazi bütövlüyü uğrunda qurban verdi.

Tarixboyu qəhrəman bir el kimi tanınan Naxçıvanın nər igidləri də bu 44 günlük Vətən müharibəsində zəfər dastanı yazdılar. Onlar doğulduqları torpaqdan yüzlərlə kilometr uzaqda "Hər qarışı bizimdir, bölünməz Vətənimizdir, Öncə Vətəndir!" – deyib canlarından keçdilər.

Dünən Naxçıvan Beynəlxalq Hava Limanı bir daha insan seli ilə təlatümə gəldi. Kimliyindən, harada yaşamasından asılı olmayaraq, hər kəs – kiçikdən-böyüyə hamı onları qarşılamağa, müqəddəs ruhları qarşısında baş əyməyə tələsdi. Üçrəngli bayrağımızla bəzəndi hər tərəf, özləri də uğruna canlarını qurban verdikləri üçrəngli bayrağa bükülüb qəhrəman kimi qayıtdılar. Qələbə soraqlı şəhidlərimiz böyük izdihamla qarşılandı. Şəhid olan hərbi qulluqçularımız Eyvazov İslam Həsən oğlu, Məmmədzadə Pərviz Zahid oğlu Naxçıvan şəhərinin Qaraçuq kəndində, Məmmədov Araz Qəhrəman oğlu Tumbul kəndində, Rüstəmov Basid İdris oğlu Kəngərli rayonunun Xok kəndində son mənzilə yola salındılar. Qəhrəman oğullarımızın dəfn mərasimlərində dövlət və hökumət nümayəndələri, həmçinin ictimaiyyət nümayəndələri, Ali Məclisin deputatları, Əlahiddə Ümumqoşun Ordunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, minlərlə sakin iştirak etdi.

Dəfn mərasimində hər kəs onların igidliklərindən danışdı. Bildirdilər ki, illərdir, həsrətlə gözlədiyimiz Qələbə xəbərini gətirən qəhrəmanlar, Siz ölmədiniz, bütün azərbaycanlıların ürəyində daim yaşayacaqsınız. Bu xalq, bu Vətən daim sizin şücaətiniz ilə fəxr duyacaq. Hər kəs bir ömrün sahibidir. Az-çox yaşamağından asılı olmayaraq, bir gün son gəlir. Şəhidlər isə adilikdən çox uzaqdırlar. Bu gün şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürur yerimiz, fəxrimizdir.

Şəhidlik bütün yüksəklərdən ucada dayanan bir zirvədir. Bu zirvəyə qalxmaq yalnız müqəddəs amallar uğrunda çarpışan, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, ləyaqətli insanlara nəsib olur. Bu yüksəkliyə ucalan insanlar ölmürlər, əksinə, ölümləri ilə bir əbədilik qazanırlar. İllər ötüb, qərinələr dolaşsa da, şəhidlər heç vaxt unudulmur, həmişə minnətdarlıq duyğuları ilə yada salınır. Bu ruhu, bu Vətən məhəbbətini, Vətən üçün ölməyə hazır olmaq şövqünü yaradan qəhrəman övladlarımıza Ulu Tanrıdan rəhmət dilədilər.

Şəhidlərimizin ruhuna dualar oxundu, yaylım atəşi açıldı, üçrəngli bayrağımız şəhidlərimizin doğmalarına əmanət edildi.

Bu gün şəhidlik şərbətini içən igidlərimizlə təkcə ailə üzvləri yox, bütün xalq qürur duyur. Şəhidin doğması, yadı olmaz axı. Kimliyindən asılı olmayaraq, hər bir şəhid Vətən övladlarının qəlbində bir məşəldir. Elə bir məşəl ki bu millət yaşadıqca o, işıq saçacaq xalqımızın yoluna, örnək olacaq gələcək nəsillərə…

Üçrəngli bayrağımız ucalıqdan enməsin deyə canından keçən Vətən oğulları, sizin igidliyiniz əbədiyyən çiçək olub Vətən torpağında bitəcək, sevgi olub ürəklərdə yaşayacaq.

**✍ Ramiyyə ƏKBƏROVA**

## *"Naxçıvanda ordu quruculuğu"* mövzusunda onlayn açıq dərs



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı və Naxçıvan Dövlət Texniki Kollecinin tələbələrinin iştirakı ilə "Naxçıvanda ordu quruculuğu" mövzusunda onlayn açıq dərs keçilib.*

Açıq dərsi giriş sözü ilə mərkəzin elmi katibi Nihad Tarverdiyev açaraq şanlı Azərbaycan Ordusunun müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə böyük rəşadət və qəhrəmanlıq göstərərək işğal altında olan torpaqlarımızı düşməndən azad etməsindən danışıb. Vurğulanıb ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dünyanın ən güclü 50 ordusu sırasında yer alan Azərbaycan Ordusunun maddi-texniki bazası genişlənir, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşır, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu daha da yüksəlir. Ordumuzun bu gücə qovuşmasında xalq-ordu birliyinin mühüm rolu var.

Diqqətə çatdırılıb ki, ölkəmizdə ordu quruculuğu istiqamətində görülən işlər Naxçıvan Muxtar Respublikasında da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, zabit ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yüksək diqqət və qayğısı sayəsində uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşmış Əlahiddə Ümumqoşun Ordu bu gün muxtar respublikanın təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verir.

2018-ci ilin mayında Şərur rayonunun Günnüt kəndinin düşməndən azad edilməsi ordumuzun gücünü bir daha sübut etdi.

Sonda açıq dərs iştirakçıları müzəffər Ordumuzun Böyük Qələbəsinin hər kəsdə qürur hissi yaratdığını qeyd ediblər.

**✍ Türkan HÜSEYNLİ**

## Əhalinin sosial müdafiəsi diqqət mərkəzində saxlanılır

Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi xəttin muxtar respublikada uğurla davam etdirilməsi sosial proqramların reallaşdırılmasına, əhalinin rifah halının gündən-günə daha da yaxşılaşmasına yol açır. Həyata keçirilən tədbirlər əhalinin etibarlı sosial müdafiəsinə nail olunmasını, məşğulluq probleminin həllini, maddi və mənəvi tələblərin təminatını və digər sahələri əhatə edir. Bu sahələrdə görülmüş işlərin nəticəsində əhalinin, o cümlədən əmək pensiyaçılarının etibarlı sosial müdafiəsi yaradılmış, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu ötən ay ərzində əmək pensiyalarının və məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlərin maliyyələşdirilməsini vaxtında başa çatdırmışdır. Tələb olunan 15 milyon 159 min manat vəsait pensiya və məcburi dövlət sosial sığorta ödəmələrinə xərclənmişdir. Əmək pensiyalarının və müavinətlərin ödənişi plastik kartlar və poçt bölmələri vasitəsilə həyata keçirilmişdir.

Hesabat ayında müvafiq icra hakimiyyəti orqanı tərəfindən məcburi dövlət sosial sığortahaqqı üzrə fondun xəzinə hesabına 10 milyon 137 min 700 manat vəsait daxil olmuşdur ki, bu da nəzərdə tutulan məbləğdən 24,5 faiz çoxdur. Pensiya və müavinətlərin ödənişinə ayrılan vəsaitin 66,9 faizi məcburi dövlət sosial sığortahaqqı şəklində muxtar respublikada yığılmışdır.

Qanunvericiliyə uyğun olaraq pensiya hüququ yaranmış 41 vətəndaşa əmək pensiyası təyin olunmuşdur. Bunlardan 25-i yaşa, 3-ü sağlamlıq imkanlarının məhdudluğuna, 13-ü isə ailə başçısını itirməyə görə əmək pensiyasına çıxmış vətəndaşlar olmuşdur. Əmək fəaliyyətinə ilk dəfə başlayan işçilərin fərdi uçot sistemində qeydiyyata alınması və sosial sığorta şəhadətnamələri ilə təmin olunması işi də diqqətdə saxlanılmışdır. Belə ki, sosial sığorta şəhadətnamələrinin hazırlanması üçün 19 ərizə forması elektron imza vasitəsilə sifariş verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

# Doğma torpaqlara qayıdanda müqəddəs Əshabi-Kəhfdən torpaq aparacağıq ki, paklaşsın

***Bu günlərdə Azərbaycan xalqı, eləcə də bütün Türk dünyasının dilində bir mövzu var: Noyabr ayının 10-da tarix yazan sərkərdəmiz, Ali Baş Komandan cənab İlham Əliyevin xalqa müraciət edərək şanlı qələbəmizin – Ermənistanın təslim olmasının müjdəsini verməsi ilə soydaşlarımızın ürəklərindəki 30 illik yaraya su səpildi, işğala son qoyuldu. Müraciətdən sonra insanlar bu tarixi zəfərin sevincini paylaşmaq üçün küçələrə axışdılar, maşın karvanları küçələrdəki sükutu qələbə coşqusuna çevirdi. Tarixi qələbəmiz muxtar respublikamızda da ümumxalq şənliyi, böyük coşqu ilə qeyd edildi. Əllərində ay-ulduzlu bayraqlarla küçələrə axışan sakinlər “Başını dik tut, şəhid anası!”, “Şəhidlər ölməz, Vətən bölünməz!”, “Qarabağ Azərbaycandır!” və bu kimi şüarlarla şəhid ailələrinin mənzillərinə üz tutdular. Şəhid anaları ilə qələbə sevincini paylaşıb, bu qələbənin şəhidlərimizin qanı hesabına qazanıldığını, onların qanlarının yerdə qalmadığını bildirdilər. Ermənistanın məğlubiyyətə uğrayaraq təslim olması sevinci aşıb-daşan azərbaycanlılara, sanki yeni bir həyat bəxş etdi. Belə həmvətənlərimizdən biri də əslən Qubadlı rayonundan olan, hazırda Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbdə Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi fəaliyyət göstərən Şəlalə Cabbarovadır. Bu günlərdə onunla görüşüb təəssüratlarını öyrəndik.***

***– Şəlalə xanım, əvvəlcə bütün Azərbaycan xalqı kimi sizə də gözaydınlığı vermək istəyirəm. İşğal altında olan torpaqlarımız bir-birinin ardınca azadlığa qovuşur. Yəqin ki, o torpaqlarda doğulub boya-başa çatan biri kimi ikiqat sevinc hissləri keçirirsiniz...***

– Çox sağ olun! Əlbəttə ki... Allah ordumuzu, Ali Baş Komandanımızı qorusun! Yaşadığım hissləri dilə gətirmək mənim üçün çox çətindir. Qubadlının işğal olunduğu 1993-cü ilin avqust ayını, heç zaman unuda bilməyəcəyim o dəhşətli günləri xatırlayıram. Mən sizə 1988-1993-cü illərdən, rayonumuzun və bizim yaşadığımız Başarat kəndinin sakinləri üçün qaçqınlıq həyatının başlandığı illərdən danışıram. O vaxt orta məktəb şagirdi olsam da, həmin dövrləri yaxşı xatırlayıram. Kəndimiz Qubadlının şimal-şərqində, Şuşaya yaxın ərazidə yerləşdiyindən Qarabağa erməni təcavüzü başlayandan qanlı döyüşlərə şahidlik edib. O zaman kəndi qoruyan müdafiə batalyonunun əsgərləri məktəb binasında yerləşdiyi üçün dərslər keçilmir, biz də qorxu içində olurduq. Əli silah tutan yerli sakinlərin hamısı o zaman döyüşə atılmışdı. Hər dəfə kəndimiz topa tutulanda, şəhid xəbəri gələndə, gözümüzün qabağında qanı axan əsgərləri görəndə, sanki qiyamət qopurdu. Axıradək müdafiə olunan köməksiz insanların sonda öz doğma yurdunu, evini atıb çıxması qədər acı bir hiss varmı, görəsən? Yurdunu-yuvasını tərk edib, evəşiyini qoyub qaçmağa məcbur olan qadın-uşaqların fəryadını, haraya gedəcəyini bilməyən ailələrin ümidsizliyini yaşadıq. Ermənilərin top atəşindən yanıb tüstüsü qalxan kənd evləri, əlində əşyaları vahimə və səksəkə ilə ora-bura qaçan insanlar, ayaqyalın uşaqlar! Yolboyu Araz çayı kənarındakı dəmiryol stansiyalarının birinə toplanmış minlərlə insanın qorxu dolu baxışları arasında üz-gözü pərişan qızların, acından ağlaşan körpələrin, çarəsizcə bilinməyənlərə doğru yol alan qocaların göz yaşları! Bütün bunlar o ağrılı-acılı dövrü yaşamış insanların heç zaman unuda bilməyəcəyi bir qaçqınlıq hekayəsi idi. 27 il sonra bu hekayənin sonluğu, şükürlər olsun, zəfərlə bitdi. İndi qürurluyuq. Torpaqlarımızı böyük siyasət nəticəsində, öz gücümüzlə, öz ordumuzla alırıq. Əgər şeirlə desəm:



*Bu dərdlər, ağrılar ölçüyə gəlməz,*
*Bu dərdlə, ağrıyla ölçülən bizik.*
*Sıyrılıb ağrılar məngənəsindən,*
*Hər gün zərrə-zərrə ucalan bizik!*

***– Sonra necə oldu ki, Naxçıvana gəldiniz?***

– Biz Bakıya, oradan da Sumqayıta gəldik. O zaman əksər qubadlılılar, demək olar ki, Sumqayıta toplandılar. Ailəmiz də oradadır. Mən isə 1996-cı ildə təhsilimi davam etdirmək üçün Naxçıvan Dövlət Universitetinə qəbul oldum, oxudum və çox qısa müddətdə bu torpağı sevdim və taleyin hökmü ilə ali məktəbi bitirəndən sonra da Naxçıvanı seçdim. Burada ailə qurdum. Bunun üçün çox xoşbəxtəm. Amma ürəyimdə göynəyən Qubadlı yarası bəzən sözə də sığmır. Bilirsiniz, bizim o yerin insanları sazlı-nəğməlidirlər. Atam İnqilab müəllimin dostları, iş yoldaşları ilə keçirdiyi saz-şeir məclisləri indi də xatirimdədir. Mənim universitetdə təhsil aldığım zaman mədəni tədbirlərdəki saz ifalarım uğurlu alınmışdı. İndi artıq o dövrlər arxada qalıb, uşaqlar böyüyüb, universitetdə təhsil alanı var. İşlədiyim Heydər Əliyev adına tam orta məktəbdə bütün müəllim yoldaşlarım da mənim kimi Qubadlının, digər şəhər və kəndlərimizin azad olunması, qələbə xəbərimizi böyük sevinclə qarşıladılar. Söz veriblər, bizə qonaq gedəcək, Qarabağ plovundan Başaratda dadacaqlar.

***– Qubadlı həsrətiniz çox uzun çəkdi. Bu qədər keçəndən sonra o torpağa yenidən bir də ayaq basmaq, sizcə, necə bir duyğudur?***

– Onu, məncə, hər insan yaşaya bilməz. Atasız ata yurduna qayıtmaq! On il əvvəl atam Sumqayıtda son nəfəsində “Bura Qubadlıdırmı?” – demişdi. O qayıda bilmədi, amma biz qayıdırıq yurdumuza, doğma Qarabağımıza! Böyük və güclü Azərbaycanın bir parçası olan Qarabağ bizimdir! Və hər zaman da bizim olacaq! Bir arzum var, inşallah, Qubadlıya yola çıxanda Naxçıvanın müqəddəs Əshabi-Kəhf ziyarətgahından bir ovuc torpaq da aparacağam ata ocağıma. Paklansın deyə! Burada torpaq təmizdir, heç zaman erməni ayağı dəyməyib. Sağ olsun, ölkə başçımız cənab İlham Əliyev bütün Azərbaycana bu sevinci yaşatdı. İndi yazılan bu dastan yüz illər sonra da xalqımızın tarix səhifələrini bəzəyəcək, əsgərlərimizin qəhrəmanlığı dillərə dastan olub övladlarımız üçün vətənpərvərlik salnaməsinə çevriləcək. Qoy mənim şeirimdən iki bənd də əsgərlərimizə ərməğan olsun!

*Murovdağda zəfər çaldın yayıldı səs-sorağın,*
*Füzuliyə yol açıldı mübarəkdir ayağın,*
*Xudafərin çox gözləyib Azərbaycan bayrağın,*
*Arazımın üzü güldü, ürək sözlə doludur.*
*Uğur olsun, ey əsgərim, bu yol Şuşa yoludur!*

*Yaradandan qüvvət aldın, O qoruyur sizləri,*
*Gəncəmizin göz yaşları yaraladı bizləri,*
*Xocalıda al qisası, qoyma qalsın izləri,*
*Vur, əsgərim, vuran qolun Şah İsmayıl qoludur*
*Uğur olsun, ey əsgərim, bu yol Şuşa yoludur!*

Digər müsahibim Naibə Allahverdiyeva Xocalı faciəsinin canlı şahididir.

***– Ay Naibə xala, gözünüz aydın, Xocalının qisası alındı. Bütün qarabağlıların torpaq nisgilinə son qoyuldu.***



Naibə xala gəlişimizin səbəbini öyrənəndə kövrəldi, o günləri xəyalında yenidən yaşadı:

– 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri keçmiş SSRİ-yə məxsus olan 366-cı alayın bilavasitə iştirakı ilə yeddi min nəfərə qədər azərbaycanlı əhalinin yaşadığı Xocalı şəhərinə 5 istiqamətdən hücum etdilər. Həmin vaxta qədər Xocalı şəhəri artıq dörd aydan çox idi ki, tam mühasirə vəziyyətində saxlanılır, əhali tibbi xidmət və ərzaq sarıdan ciddi əziyyət çəkirdi. Şəhərdə çox sayda xəstələr, yaralılar, qocalar, qadınlar və uşaqlar var idi.

Mənfur düşmənlərimizin törətdiyi soyqırımdan əvvəl ailəmlə birlikdə Xocalıda firavan həyat sürürdük. Ta ki o günə qədər. Düşmən elə azğınlaşmışdı ki, qoca, qadın, uşaq demədən qarşısına çıxan hər kəsə divan tuturdu. Biz də o gün canımızı qurtarmaq üçün doğma el-obamızı, yurdumuzu qoyub qaçmağa məcbur olduq. Hərə qaça bildiyi bir səmtə üz tuturdu. Anamı, qardaşlarımı köçdə itirmişdim. Hava da şaxtalı, boranlı idi. Sanki o anda Allahın qəzəbinə gəlmişdik. Ətrafdakı meşənin hər yeri Xocalını tərk edərək Ağdama üz tutan və ermənilər tərəfindən qeyri-insani şəkildə qətlə yetirilən insanların eybəcər hala salınmış cəsədləri ilə dolu idi. Ermənilər, xüsusilə 13 yaşlı qızı vəhşicəsinə öldürmüşdülər. Bir ananın ayaqlarını bağlayaraq onu qətlə yetirmişdilər. Vəhşilər nə qadınlara, nə qızlara, nə də südəmər uşaqlara rəhm edirdilər. Düşmənə əsir düşmüş kənd sakinlərindən biri bizi görən kimi qaçmağımıza işarə etdi.

Gizlənməyə çalışdıq. Verilən işgəncələri canlı olaraq görsək də, səsimizi boğmaq məcburiyyətində idik. Ağdama çatanda ölən və yaralananların arasında öz ailəmi, qardaşlarımı, bacımı, anamı axtarmağa başladım. Amma tapa bilmədim.

Xocalıdan didərgin düşən dörd qızla birlikdə Ağdama dəmiryol vağzalına gəldik. Qatarın hansı istiqamətdə getdiyini bilmədən özümüzü vaqona atdıq. Sonradan öyrəndik ki, qatar Naxçıvana gedir. Hələ uşaqikən bu şəhər haqqında atamdan eşitmişdim. Atam deyirdi ki, Naxçıvanda qohumları var. Mən də bura üz tutanda elə o tanımadığım qohumlarımı tapmaq, onlara sığınmaq niyyəti ilə gəlirdim. Vaqona əyləşəndə müsibətdən canımı qurtardığımı düşünmüşdüm. O vaxta kimi ki, Mehri kəndi ərazisində mənfur düşmənlər



qatarın qarşısını kəsib, güllləbaran etməyə başladılar. Qızgəlini əsir götürürdülər. O andaca qardaşımın “Əsir düşməkdənsə, özünüzü öldürün” sözləri ağlıma gəldi. Çarəsiz oturduğum oturacağın altında gizləndim. Bir qədər sonra eşitdik ki, ümummilli liderimiz danışıqlar aparıb. Qatarın Naxçıvana keçməsini təmin edib. Naxçıvana gəlişimlə ikinci həyatım burada başladı. Qonaqpərvər insanlar sayəsində burada o ağır yaralarla həyatda qalmağı bacardım. Burada naxçıvanlı bir oğlanla ailə həyatı qurdum. Yeddi övladım var. Yoldaşım və 2 uşağımın fiziki imkanları məhduddur. Sonralar bir neçə quruma müraciət etsəm də, valideynlərimdən, bacı-qardaşlarımdan xəbər ala bilmədim. Dedilər ki, bir qardaşım şəhid olub, digər yaxınlarım isə ya itkin düşüb, ya da ki, girov götürülüblər.

***– Naibə xala, bəs torpaqlarımızın azad olunması, Böyük Qələbəmizlə nəticələnən Vətən müharibəsi haqqında nə deyə bilərsiniz?***

– Ay qızım, 28 ildir ki, o yerlərin həsrəti ilə yaşayıram. Oğullarımız qanları bahasına yurdumuzu azad etdirirlər. Mənim də iki oğlum hərbçidir. Onlardan biri Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirib Hərbi Akademiyaya qəbul olundu. Oranı bitirdikdən sonra cəbhə bölgəsinə, Ağdama xidmət üçün yola düşdü. Hər dəfə onunla danışanda deyirdi ki, ana, sənin torpağına yaxınam. Bir dəfə oğlumu ziyarətə gedəndə Ağdam ətrafından torpaq da gətirmişdim. Bir gün Vətənim alınmadan dünyadan köçsəm, o torpaqla dəfn olunmağımı istəmişdim ki, ruhum dinclik tapsın. Vətən müharibəsi iştirakçısı olan oğlum döyüşlərdə ağır yaralansa da, sağalaraq yenidən döyüşə qayıtmışdı. Mənə söz vermişdi ki, Azərbaycan bayrağını Xocalıda dalğalandıracaq, məni də yurduma aparacaq. Mən çox şadam ki, bu gün Ali Baş Komandanımız, belə igid, cəsur oğullarımız xalqımıza, qaçqın, məcburi köçkün statusu daşıyan soydaşlarımıza Qələbə sevincini yaşatdı.

Ali Baş Komandanımızın hər bir müraciətini ailəcə diqqətlə dinləyirdik. O hər dəfə azad edilmiş bölgələrimizi sadalayanda göz yaşlarıma hakim ola bilmirdim. Amma bunlar sevinc göz yaşlarıdır. Artıq bu günlərdə ümidlə Prezidentimizdən “Xocalıya qayıda bilərsiniz” müjdəsini eşitmək üçün səbirsizlənirəm.

Mən bir hərbçi anası kimi Azərbaycan analarına üzümü tutub demək istəyirəm ki, qoy övladları üçün nigaran olmasınlar. Şəhid anaları ağlamasın. Şanlı tariximizə yazılan bu qələbə onların oğullarının qanı ilə yazılıb. Oğullarını döyüşə necə başı dik göndərmişdilərsə, şəhidlərimizi də eləcə məğrur qarşılasınlar. Artıq Qarabağımız azaddır. Qalır ki, yurdumuzdan mənfurlar tamamilə təmizlənsin.

Naibə xalanın müqəddəs arzularına biz də qoşulub onunla sağollaşırıq. Azərbaycan əsgərinin qoluna qüvvət, dizlərinə bundan sonra da təpər arzulayırıq. Bütün soydaşlarımızla öz yurdlarında görüşmək ümidi ilə...

**✍ Telli MƏMMƏDOVA**

---

# Naxçıvanlı döyüşçü Elton İsmayılov:
## “Əsgərlərimizdə həmişə böyük ruh yüksəkliyi var idi”



Azərbaycanın parlaq qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi müzəffər Ordumuzun gücünü bütün dünyaya göstərdi. İşğalçı Ermənistanı torpaqlarımızdan qovmuş əsgərlərimizin qəhrəmanlığı indi dillərdə dastandır. Müasir silah-sursatlarla tək atışla düşmən hədəflərini bir-bir yox edən, Şuşanı əlbəyaxa döyüşdə düşməndən təmizləyən bütün əsgərlərimiz indi xalqımızın, Azərbaycan Ordusunun fəxridirlər. Artıq müharibə qurtarıb, döyüşlərdə iştirak etmiş əsgər və zabitlərimiz həmin günlərin qürurunu yaşayırlar. O döyüşçülərdən biri də leytenant Elton Pənah oğlu İsmayılovdur.

24 yaşlı Elton Şahbuz rayonunun Kükü kəndində anadan olub. 2011-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə daxil olub. 2014-cü ildə liseyi bitirən Elton Bakıda Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. 2018-ci ildə buradan məzun olan gənc zabit Qarabağ bölgəsində, təmas xəttindəki mövqelərdə kəşfiyyat taqımının komandiri vəzifəsində mürəkkəb şəraitdə hərbi xidmət keçib. 2020-ci ilin 27 sentyabrında Ermənistanın növbəti təxribatına cavab olaraq başladılan əks-hücum əməliyyatlarında Murovdağ, Hadrut və Suqovuşan uğrunda gedən döyüşlərin iştirakçısıdır. Sonuncu döyüşlərin birində yaralanaraq müalicəsini davam etdirən Eltonla görüşüb həmsöhbət olduq.

İlk döyüşə Murovdağ zirvəsinin ələ keçirilməsi uğrunda başladıqlarını deyən Elton bildirir ki, elə müharibənin ilk saatlarından ordumuz təşəbbüsü ələ almışdı. Əsgərlər arasında böyük ruh yüksəkliyi vardı. Gənc zabit deyir ki, buna qədər xidmət keçdiyi müxtəlif nöqtələrdə ermənilərin atəşkəsi dəfələrlə pozduğunun şahidi olmuşdu. Ordumuz da bunun cavabını vermişdi. Ancaq 27 sentyabrdakı əks-hücum bu dəfə düşmən üçün öldürücü oldu. Erməni əsgərləri hər yerdən qaçmağa başladılar. Üzbəüz mövqelərdə onların necə məhv edildiyinin şahidi olan Elton İsmayılov dinc sakinlərin ermənilər tərəfindən necə hədəf alındığından da danışır. Yaralanıb müalicə olunduqdan sonra evə buraxılmış döyüş yoldaşlarından birinin cəbhəyanı ərazidəki evinə raket düşməsi nəticəsində şəhid olması xəbəri onu daha çox sarsıdıb. Ancaq 10 noyabrda düşmənin təslim olması, Qarabağın tamamilə azad olunması digər hərbçi yoldaşları kimi, onu da çox sevindirib. Yaxın günlərdə yenidən hərbi xidmətə qayıdacağını bildirən zabit Böyük Qələbədə payı olan bütün döyüşçü yoldaşlarını ehtiramla xatırlayır. O əmindir ki, Ordumuz Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında bundan sonra da həmişə qalib olacaq.

İkinci Qarabağ müharibəsi iştirakçısı Elton İsmayılova bundan sonrakı xidmətində uğurlar və cansağlığı arzu edib, xudahafizləşirik. Kənddə, rayonda eşidən, xəbər tutan hamı İsmayılovların evinə gəlir, insanlar Böyük Qələbəmiz münasibətilə onu və bir-birlərini təbrik edirlər. Hamıdan çox sevinən isə zabitin anası Natiqə xanım və 90 yaşlı Sənubər nənəsidir.

Qoy bir daha müharibə olmasın!

**✍ Əli CABBAROV**

# Tanrının duz neməti və Vətənimin Duzdağ möcüzəsi



***Duz, əslində, yazılışı da, səslənişi də sadə bir ifadədir. Di gəl ki, bu adın ağırlığı (hələ çəkisinin ağırlığını demirəm) neçə minilliklərdir, müzakirə mövzusudur. İstər folklorda, ədəbiyyatda, tarixdə, dində, istərsə də mifik təfəkkürdə duz mövzusuna rast gəlinir. Duzun işlənmə dairəsi məişət, texnika, maldarlıq, tibb, kimya sənayesi, kulinariya, kosmetika və digər sahələri əhatə edir.***

“İnək duza aldanar, insan sözə”, “Dostsuz başım, duzsuz aşım” kimi atalar sözləri, “Ömrün duz dağına dönsün!” kimi alqışlar, “Duz-çörəyim haqqı” kimi andlar duz ifadəsinin qədimdən bəri ulularımız tərəfindən geniş şəkildə istifadə olunduğunu göstərir. Ulularımız, eyni zamanda yerə duz töküləndə, qanqaralığı olacağına inanırdılar. Digər bir inanca görə, bədnəzərdən qorunmaq üçün ocağın üzərinə duz tökərlər.

Duz xalq təbabətində də geniş işlənməkdədir və təsadüfi deyildir ki, duzu “təbiətin həkimi” hesab edirlər. İllərin sınağından çıxmış bəzi türkəçarələrə bu gün də müraciət olunur. Məsələn, böcək dişləyən yeri duzlu su ilə silmək lazımdır. Duz vannası gərgin əsəbiliyi və yuxusuzluğu aradan qaldırır. Zökəm, selikli qişa xəstəliklərində buruna duzlu su çəkilər. Başağrısı, miqren zamanı alın və ya gicgaha duz və buz qarışığı qoyular. Boğaz ağrısı zamanı duzlu su ilə qarqara edilməsi müalicəvi təsirə malikdir. Öskürək, bronxit zamanı qaynar su buxarı ilə tənəffüs yaxşı təsir göstərir.

Duzun tibdə işlənməsi son illər daha da təkmilləşdirilmiş və müasir standartlar müəyyənləşdirilmişdir. Duz terapiyası “haloterapiya” adlanır, mənası duzla müalicə deməkdir. Bu müalicə üsulunun hələ qədim yunan dövründən mövcud olduğu təsdiqlənmişdir. Aparılan təcrübələr nəticəsində duz terapiyasının nəfəs yolu və dəri xəstəliklərinin bir çox növlərinin müalicəsində faydalı olduğu müəyyənləşmişdir. Mütəxəssislərin qənaətinə görə, duz terapiyası XIX əsrin ortalarında polşalı Feliks Boçkovskinin duz mədənlərində çalışan işçilərin ağciyər xəstəliklərinə tutulmadıqlarını kəşf etməsi ilə başlamışdır.



Bir çox sağlamlıq mərkəzləri və kurortlarda xüsusi duz otaqları olan yerlər hazırlanıb. Duz mağaraları isə Tanrının insanlara bəxş etdiyi böyük bir nemətdir. Duz mağaralarının tarixi qədim olsa da, günümüzədək yaxşı qorunub saxlanılmış və bu gün də imkanlarından geniş şəkildə istifadə olunmaqdadır. Əsasən, ağciyər xəstələri üçün göstəriş olan bu mağaralar müasir tibbin əvəzolunmaz bir qaynağıdır və elmi dildə “speleoterapiya” adlanır. Yunan dilindən tərcümədə “spelaion” – mağara və “terapiya” – müalicə deməkdir. Speleoterapiya qədim aeroterapevtik müalicə üsullarından biri sayılır və tənəffüs sisteminin (bronxial-astma, bronxit, allergik rinit və sair) duz şaxtalarında dərman qəbul etmədən müalicəsidir. Bu müalicə üsulunun tarixinə nəzər salanda məlum olur ki, duz şaxtası şəraitində aparılan müalicə İtaliya, Macarıstan, Polşa, Almaniya, Ukrayna, Rumıniya və digər ölkələrdə çox geniş tətbiq olunur. Şaxta şəraitində ilk dəfə müalicə hələ 1871-ci ildə İtaliyada aparılmışdır. Belə şəraitdə bronxial-astmalı xəstələrin müalicəsi isə ötən əsrin 40-cı illərində aşkara çıxmışdır.

Azərbaycanda şaxta şəraitində müalicənin tarixi Naxçıvan şəhərində ötən əsrin 70-ci illərindən hesab edilir. Hələ Sovetlər dövründə, 1980-ci ildə Ukraynanın Elmi-Tədqiqat Kurortologiya İnstitutunun





direktoru, professor M.D.Toroxtin Naxçıvan Respublika Fizioterapiya Xəstəxanasında ağciyər-bronx aparatının qeyri-spesifik xəstəliklərin müalicəsinin aparılmasında üstünlüklərini nəzərə alaraq xüsusi rəy vermişdir. Naxçıvanda Duzdağ Fizioterapiya Mərkəzi 2008-ci il iyun ayının 4-də açılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Duzdağı Naxçıvanın rəmzlərindən biri hesab edərək bildirmişdir: ***“Naxçıvanın rəmzlərindən biri də təbii ehtiyatları 90 milyon ton  təşkil edən Duzdağdır. Bu dağ ölkəmizdə təkcə saf və təmiz duzu ilə deyil, həm də şəfaverici xüsusiyyətlərinə görə tanınmışdır. Hələ Nuh-Nəbi dövründə burada duz çıxarılır. Şöhrəti dünyaya səs salan İpək Yolundan əvvəl Naxçıvan ərazisində Yaxın Şərq ölkələrinə Duz yolu uzanırdı. Həmin ölkələrə buradan duz daşınırdı. Qədim Naxçıvanın ən möcüzəli yerlərindən biri olan Duzdağın hər qarışında, dağında, daşında tarixin sirli, sehrli izləri gizlənmişdir”.***

Hələ ötən əsrin 90-cı illərindən etibarən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan Duzdağının əhəmiyyəti, müalicəvi xüsusiyyətləri nəzərə alınaraq bu unikal məkanın daha dərindən öyrənilməsi və imkanlarından geniş şəkildə istifadə olunması məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir. Məhz bu tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov “Naxçıvan: ilkin şəhər və Duzdağ” mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında 2012-ci il 20 aprel tarixdə Sərəncam imzalamışdır. Sərəncama əsasən simpoziuma hazırlıq, eyni zamanda Duzdağ mədəniyyəti tarixinin sistemli şəkildə araşdırılması məqsədilə Tədbirlər Planı təsdiq edilmişdir. “Naxçıvan: ilkin şəhər və Duzdağ” mövzusunda keçirilən beynəlxalq simpoziumda Ali Məclisin Sədri Naxçıvan Duzdağını öyrənmədən, ümumiyyətlə, Naxçıvanda ilkin şəhər mədəniyyətini öyrənməyin mümkünsüzlüyünü bir daha vurğulamışdır.

Ali Məclis Sədrinin 2017-ci il 12 sentyabr tarixdə imzaladığı “Naxçıvanda Duz Muzeyinin yaradılması haqqında” Sərəncamına müvafiq olaraq aprelin 25-də Naxçıvan Duz Muzeyi istifadəyə verilmişdir. Muxtar respublikamızın rəhbəri muzeyin açılışı zamanı Naxçıvanda şəhərsalma mədəniyyəti və duzçıxarılma tarixinin tədqiqinin əhəmiyyətini vurğulamışdır: ***“Naxçıvanın tarixi Naxçıvan duzunun çıxarılma tarixi ilə bağlıdır. Naxçıvan tarixini tədqiq etmək üçün, ilk növbədə, Naxçıvan duzunun tarixini öyrənmək lazımdır. Çünki Naxçıvanın şəhər kimi formalaşmasında Naxçıvan duzunun, Duzdağın böyük əhəmiyyəti olmuşdur. 5-7 min il bundan əvvəl tədavüldə qiymətli metallardan və puldan istifadə olunmurdu. Həmin dövrdə yeganə tədavül vasitəsi duz olduğunu nəzərə alaraq demək olar ki, Naxçıvan şəhəri məhz duzun çıxarıldığı bu ərazilərdə salınmışdır. Bu da o qənaətə gəlməyə imkan verir ki, Naxçıvan şəhərinin formalaşması 5-7 min il bundan əvvəl Naxçıvanda ilk dəfə duzun çıxarılması ilə başlanmışdır. Bu barədə müxtəlif ölkələrin tarixçiləri tərəfindən də məlumatlar verilmişdir. Belə ki, II əsrdə yunan alimi Klavdi Ptolomey, XVI əsrdə ərəb alimi Əl-Şərifi, XIX əsrdə rus alimi Konstantin Nikitin və bundan sonrakı dövrlərdə tədqiqat işləri aparan yerli tarixçilərimiz öz əsərlərində Naxçıvan şəhərinin formalaşmasının Nuh Peyğəmbərlə və duzun çıxarılması ilə bağlı olduğunu qeyd etmişlər”.***

Qeyd olunmuşdur ki, bu gün də öz əhəmiyyətini itirməyən Naxçıvan duzu hazırda məişətdə, sənayedə, təbiətdə, insan sağlamlığının qorunmasında geniş istifadə olunur, ondan müxtəlif əl işləri hazırlanır. Hər il minlərlə insan Duzdağ Fizioterapiya Mərkəzində müalicə olunur. Bütün bunlar bir daha Naxçıvan duzunun bu gün də böyük əhəmiyyətə malik olduğunu göstərir. Qarşıda duran əsas vəzifə isə Naxçıvanın duz tarixini öyrənərək gələcək nəsillərə çatdırmaqdır. Ona görə də Naxçıvan tarixi bundan sonra da dərindən öyrənilməli, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi, müvafiq dövlət qurumları və ziyalılar Naxçıvan şəhərinin yaranmasının duzun çıxarılması ilə bağlılığı sahəsində tədqiqatları genişləndirməli, arxiv sənədləri toplanmalı, yeni kitablar və elmi məqalələr yazılmalıdır.

Təsadüfi deyil ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Duzdağ Fizioterapiya Mərkəzinin tibbi əhəmiyyətini və sağlamlıq turizminin inkişafındakı rolunu nəzərə alaraq 2019-cu il 16 may tarixdə “Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalamış, bu səhiyyə müəssisəsinin yubileyi yüksək səviyyədə qeyd olunmuşdur. Yubileylə əlaqədar əməkdaşların mükafatlandırılması, eləcə də şəfa ocağı üçün yeni inzibati binanın tikilməsi haqqında göstərişin verilməsi muxtar respublikada səhiyyəyə, tibb işçilərinə, onların əməyinə verilən ən böyük qiymətdir. Bu gün dünyanın müxtəlif ölkələrindən yuxarı tənəffüs yolları, ağciyər xəstəlikləri və allergiyalardan əziyyət çəkən yüzlərlə insanın üz tutduğu mərkəz ötən müddət ərzində dövlətimizin qayğısı sayəsində öz fəaliyyət imkanlarını xeyli genişləndirmişdir. Muxtar respublika rəhbərinin tapşırığı ilə bir neçə dəfə təmir-bərpa olunan şəfa ocağı müalicə turizminin inkişafına böyük stimul vermişdir. 2008-ci ildə Ali Məclis Sədrinin tapşırıqlarına uyğun olaraq Duzdağ Fizioterapiya Mərkəzinə çevrilən bu səhiyyə ocağının 474 çarpayılıq yeraltı və yerüstü hissəsində bronxial-astma və ağciyər xəstəliklərindən əziyyət çəkən xəstələrin müalicəsi üçün hər cür şərait yaradılmışdır.



Naxçıvan Duzdağı dünya mediasının da diqqətini cəlb etmişdir. Belə ki, Duzdağda olan jurnalistlər bu möcüzəli mağara qarşısında heyrətlərini gizlədə bilməmiş və dünyanın nüfuzlu kütləvi informasiya vasitələri ilə öz təəssüratlarını bölüşmüşlər. “İzvestiya” qəzetinin 25 noyabr 2004-cü il nömrəsində dərc olunmuş “Torpağın sərvəti” adlı məqalədə Naxçıvanın Azərbaycanın duza olan tələbatını tamamilə təmin edə biləcəyi vurğulanmışdır.

Yaponiyada nəşr olunan “Top Lider” jurnalının əməkdaşı İtaru İşi 2010-cu ildə Duzdağı gəzmiş və qayıtdıqdan sonra öz təəssüratlarını “Dünyada ən yaddaqalan anlar” məqaləsində geniş şəkildə qələmə almışdır. “Mağaraya daxil olarkən duzun qoxusu hiss olunur. İnsan biranlıq fikirləşir ki, ağzında çoxlu duz vardır. Lakin bir müddət keçdikdən sonra qoxuya alışırsan. Mənim səfərim qış ayına təsadüf etdiyindən mağaradakı temperatur çöldəki temperaturdan daha mülayim idi. Ancaq sərinlik az da olsa, hiss olunurdu, Duz mağarasında havanın temperaturu il boyunca 15-18 dərəcə arasında müşahidə edilir. Yay fəslində Naxçıvanda havanın temperaturu 40 dərəcədən artıq olur. Ona görə də, fikrimcə, isti fəsildə mağaraya getmək daha məqsədəuyğundur”.

Bu qəbildən olan məqalələr sırasında amerikalı jurnalist Mark Heyn “Vice” jurnalında nəşr olunan “Qafqaz dağlarının San-Fransiskosu – Naxçıvana xoş gəlmisiniz!”, eyni zamanda “Mağara tədqiqatçıları üçün füsunkar mehmanxana” adlı məqalələri xüsusilə maraq doğurur. Mark Heyn təəssüratlarında bildirir: “Zəngin tarixi keçmişlə müasirliyi və rahatlığı özündə birləşdirən Duzdağ dünyanın heç bir yerində olmayan qəribə və inanılmaz xoş ovqat yaradır. Komaya bənzər kabinələrlə ayrılmış mağaraları gəzərkən insanlar, sanki bunların həqiqət olduğuna inanmırlar. Bu yer müalicəxanadan çox “Ulduz keçidinə” bənzəyir.

*Bəli, bu gün Naxçıvan duzunun faydaları, Duzdağın müalicəvi əhəmiyyəti nəinki respublikamızda, hətta onun hüdudlarından kənarda da tanınmaqdadır. Yerli sakinlərlə yanaşı, xarici turistlərin də diqqətini özünə cəlb etməyi bacaran bu unikal məkan Tanrının bizə bəxş etdiyi bir möcüzədir. Vətəndaş olaraq bizim üzərimizə düşən ən böyük vəzifə isə bu nemətləri göz bəbəyimiz kimi qoruyub gələcək nəsillərə çatdırmaqdır.*

**Çinarə İSMAYILOVA**
***Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasının əməkdaşı***

## Naxçıvan Dövlət Universiteti ilə ABŞ universitetləri arasında onlayn təlimlər davam edir



***Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsində ilk dəfə qəbul aparılan ingiliscə İqtisadiyyat ixtisası üzrə kadr hazırlığı davam edir. Bu məqsədlə yeni ixtisasda dərslərlə məşğul olacaq müəllimlər və habelə fakültə tələbələri üçün ABŞ-ın Şimali İlliyons Universitetinin professorlarının onlayn məşğələləri təşkil olunub.***

Təlimdə ilk məşğələni “Biznesə giriş və biznes strategiyası” mövzusunda professor Paul Prabhaker, “Sahibkarlıq və kiçik biznesin inkişafı” məşğələsini isə ABŞ-ın İndiana şəhərində yerləşən Purdue Universitetinin professoru Jamaluddin Husain keçib. Noyabrın 16-da təlimin növbəti 10-cu məşğələsi olub. “Keyfiyyət idarəetməsi” mövzusunda təqdimat aparan professor Con Kalaras qlobal rəqabət şəraitində firmaların həyata keçirdiyi strategiya, müxtəlif ölkələrdə bunun üçün tətbiq olunan modellər barədə geniş təqdimat aparıb.

Təlimlər sentyabr ayından başlayıb, dekabrın 7-dək davam etdiriləcək.

**Səadət ƏLİYEVA**

## Qarabağın gözəl yurdu, “Qafqazın qapısı” adlanır




*Azərbaycanın qədim və çox böyük tarixə malik şəhərlərindən biridir Ağdam. Qarabağın mərkəzində – Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşən füsunkar təbiətli, məhsuldar torpaqlı Ağdam gözəl Qarabağımızın canıdır. Ağdam sözü qədim türk dilində “kiçik qala” deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşayan türkdilli qəbilələr özlərini müdafiə etmək üçün, əsasən, kiçik qalalar tikərdilər.*

Zaman keçdikcə bu şəhərin adı müxtəlif mənalarla ifadə edilib. XVIII əsrin birinci yarısında qarabağlı Pənahəli xanın Ağdamda ağ daşdan tikdirdiyi imarət uzun müddət kənd sakinləri üçün bir növ simvola çevrilib. Bu mənada, “Ağdam” həm də günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev mənasını verib. Digər bir versiyaya görə, Ağdam sözünün başqa bir mənası “Ağ insan”dır. Rus alimlərinin apardığı araşdırmalara görə, Ağdam-ağ Adəm, ilk insan mənasını verməklə dünyanın ən qədim yaşayış məskənlərindən də biridir. Dünya tarixində ilk dəfə olaraq ən qədim buğdanın bu ərazidə tapılması ilk insanın – Adəmin burada yaşamasının sübutu kimi qiymətləndirilir. Ağdam Azərbaycan ərazisində ilk formalaşan dövlət quruculuğunda mühüm rol oynayıb. Albaniya ərazisində yaşayan 26 tayfadan biri olan, yüksək mədəniyyətə malik qarqarlar Ağdam ərazisindəki Qarqar çayı boyunca məskunlaşıblar. Cənubi Qafqaz xalqları içərisində ilk əlifbanı da məhz Ağdam ərazisində yaşayan yerli Beniamin qarqarlarının yaratdığı deyilir. Ağdam qədim yaşayış məskənlərindən biri hesab olunur. Tədqiqatlar onu deməyə imkan verir ki, ilk qədim insanlar rayon ərazisində altı-səkkiz min il bundan əvvəl, yəni Eneolit dövründə (eramızdan əvvəl IV-VI minilliyi əhatə edir, “Misdaş” dövrü adlanır) yaşayıb, qədim əkinçilik və maldarlıq mədəniyyətinə malik olublar. Onlar dulusçuluq, metaləritmə, zərgərlik və digər sahələrlə məşğul olub, maddi-mənəvi abidələr yaradıblar.

Ağcabədi, Tərtər, Bərdə, Kəlbəcər, Əsgəran və Xocavənd, həmçinin Füzuli rayonları ilə həmsərhəd olan Ağdamın yaranma tarixi mənbələrdə 8 avqust 1930-cu il kimi göstərilir. Ağdam rayonunda 1 şəhər, 2 qəsəbə (Quzanlı, Açarlı) 123 kənd var idi. Rayonun inzibati mərkəzi Ağdam şəhəri Bakıdan 362 kilometr məsafədə, Qarqar çayının sahilindən 3 kilometr aralı, Qarabağ düzünün cənub-qərbində yerləşir. Qədim tarix, mədəniyyət, elm və təhsil mərkəzi kimi hər zaman maraq doğurub Ağdam. Xudu Məmmədov, Sara Qədimova, Qədir Rüstəmov, Arif Babayev və neçə-neçə böyük sənətkarı, elm-mədəniyyət xadimlərini yetişdirib bu torpaq. Ağdam şəhərinin şimal-qərbindəki Xındırıstan kəndində yerləşən Üzərliktəpə abidəsi, Xaçındərbənd kəndindəki Qutlu Musa oğlu günbəzi (1314-cü il), Salahlı-Kəngərli kəndindəki türbə və daş abidələr (XIV əsr), Papravənd kəndindəki Xanoğlu türbəsi (XVII əsr), türbələr və məscid (XVIII əsr), Qarabağ xanı Pənahəli və onun nəslinin Ağdam şəhərindəki imarəti (XVIII əsr), Şahbulaq qalası və digər müxtəlif tarixi dövrləri əks etdirən tarixi-memarlıq abidələri, yaşayış məskənləri, sərdabələri, kurqanları Ağdamın qədim Azərbaycan torpağı olduğunu sübut edir. Ağdamın iqlimi, əsasən, mülayim isti, quraq subtropikdir. Rayon ərazisinin 1700 hektarı meşəlik, 28 min hektarı isə kənd təsərrüfatına yararlı torpaqlardan ibarət idi. Rayon ərazisindən Qarqar, Xaçın, Qabartı, Papravənd (Gülyataq), Gülablı çayları axırdı. Ağdam ağır, yeyinti və yüngül sənayeyə, inkişaf etmiş kənd təsərrüfatına malik rayon idi. Ağdamda dəzgah avadanlıqları, aerokosmik və rabitə cihazları, metis-furnitur, traktor və avtomobil təmiri, asfalt, konserv, yağ-pendir, barama toxumu, pambıq, şərab və mexanikləşdirilmiş çörək zavodları, xalça fabriki, taxıl məhsulları, tikinti materialları və ət kombinatları, iki dəmiryol vağzalı və aeroport, avtomobillərə texniki xidmət stansiyaları, məişət xidməti kombinatı, elektrik şəbəkəsi, kənd təsərrüfatı, kənd təsərrüfatının mexanikləşdirilməsi və elektrikləşdirilməsi stansiyaları, Üzeyir Hacıbəyov adına Musiqi Texnikumu, Əbdürrəhim bəy Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrı fəaliyyət göstərirdi.

### *Düşmənin həsədlə baxdığı strateji əhəmiyyətli şəhər*

1988-ci ildə Ermənistanın Azərbaycana qarşı başlatdığı mübarizənin ilk atışmaları, ilk qığılcımı, təcavüzün ilk addımları məhz Ağdamda hiss edildi. Dağlıq Qarabağa gedən yolların Ağdamdan keçməsi mənfur düşməni daha da iştaha gətirdi. 1992-ci ilin sentyabrında Abdal-Gülablı kəndinin işğal olunması, ondan sonra da rayonun digər kəndlərinə edilən hücumlar düşmənin Ağdama qarşı yönəldilmiş təcavüzkar planlarını doğrultdu. Ağdam 1993-cü il iyul ayının 23-də işğal olundu. Erməni təcavüzünün qarşısının alınması üçün strateji nöqteyi-nəzərdən çox əhəmiyyətli bir nöqtədə yerləşən Ağdam ovaxtkı dövlət idarəetmə sükanı arxasında oturan siyasət dəllallarının yarıtmaz fəaliyyəti, onlar arasında gedən çəkişmələr və ziddiyyətlərin nəticəsində ağdamlıların uzunmüddətli mübarizəsinə baxmayaraq, işğal edildi. İşğal nəticəsində rayon ərazisinin 846,7 kvadratkilometri, yəni ümumi ərazinin 77,4 faizi ermənilərin əlinə keçdi. Böyük şairimiz Cabir Novruz Ağdamın işğalını belə mənalandırırdı:

*Aman, Allah aman,*
*Görməyəydim heç bir zaman,*
*Ağdam kimi məmləkətim*
*Necə çıxdı əlimizdən,*
*Ağdam getdi ta nə qaldı…*
*Əsr-əsr, zaman-zaman*
*Neçə yerə parçalanmış Vətən qaldı…*
*Ağdam getdi, ta nə qaldı*
*Bir mən qaldım, bir sən qaldın…*

Ağdam getdi... Mənfur düşmən Ağdamı talan etdi. Neçə kəndi, yaşayış binasını, sənaye və tikinti müəssisəsini, məktəb binasını, səhiyyə mərkəzini, mədəniyyət ocağını, teatrı, məscid və muzeyləri, tarixi abidələri vandalizm siyasətinin qurbanına çevirdi. Ağdamın payına 5897 şəhid, 3531 nəfər sağlamlıq imkanları məhdud, 1871 nəfər yetim uşaq düşdü. 126 min (1993) nəfərdən artıq ağdamlı öz doğma ev-eşiyindən didərgin düşdü, qaçqın, məcburi köçkün adı aldı.

Müstəqil Azərbaycanın qurucusu, ümummilli liderimiz Heydər Əliyev siyasi hakimiyyətə qayıtdıqdan sonra ağdamlıların da həmdəmi, himayədarı oldu. Böyük dövlət xadimi ağdamlılarla keçirdiyi hər bir görüşündə onların dərdinə şərik olur, ağdamlıların dəyanətli, vüqarlı insanlar olduqlarını bildirərək, torpaq itkisi ilə yaşayan həmvətənlərimizin doğma yurdlarına qayıdacaqlarına inam hissi yaradırdı... O deyirdi: ***“Ağdamlılara mənim daim xüsusi hörmətim və qayğım olubdur. Hələ 70-ci illərdə mənim burada işlədiyim zaman Ağdama nə qədər çox diqqət göstərilmişdir. Ağdamda nə qədər böyük işlər görülmüşdür – həm şəhərin qurulması, yaradılması, həm qəsəbələrin abadlaşdırılması, həm Ağdamın iqtisadiyyatının inkişaf etdirilməsi baxımından. Ağdamın iqtisadiyyatı o illərdə çox yüksək sürətlə inkişaf edirdi. Ağdam rayonu o vaxt bizim ən varlı rayonlarımızdan biri idi. Çünki Ağdamın çox gözəl torpağı var, çox gözəl təbiəti var, çox fədakar, zəhmətkeş insanları var. Ağdam Azərbaycanın inkişafında çox böyük rol oynamışdır. Ağdamdan olan insanlar Azərbaycanın elmini, mədəniyyətini inkişaf etdirmişlər. Azərbaycanın dövlət orqanlarının yaradılmasında, inkişaf etdirilməsində fəal iştirak etmişlər. Bu da həm ağdamlıların sərvətidir, həm də bütün Azərbaycan xalqının sərvətidir”.***

Ulu öndərimizin siyasətini layiqli şəkildə davam etdirən Prezident cənab İlham Əliyevin qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması və onların məskunlaşma, məşğulluq problemlərinin həlli üçün verdiyi fərmanlardan sonra bir sıra yaşayış məntəqələrində hər cür kommunal xidmətlər təşkil edilmiş, orta məktəblər, tibb məntəqələri, uşaq bağçaları və digər zəruri infrastruktur obyektləri tikilmiş, ağdamlılara dövlət tərəfindən hər cür qayğı göstərilmişdir. Bunun nəticəsidir ki, ağdamlılar da dövlət başçısının apardığı siyasəti tam dəstəkləyir və bilirdilər ki, tezliklə doğma yurdlarına qayıdacaqlar.

### *“Qafqaz Xirosiması” və ruhlar şəhərinə çevrilmişdi Ağdam*

Bir vaxtlar Azərbaycanın iqtisadi, elm, təhsil mərkəzlərindən biri olan “Qafqaz gözəli” Ağdam mənfur ermənilərin əlində “Qafqaz Xirosiması” və ruhlar şəhərinə çevrilmişdi. Yanlış eşitmədiniz. Ağdam bu gün erməni vandalları tərəfindən xarabazarlıq, viran edilmiş yurddur. Burada erməni hərbi birləşmələrinin törətdikləri vəhşilikləri, insanlığa sığmayan cinayətləri görən hər kəs bu cür vandallığı Xirosima faciəsi ilə müqayisə edir. Bu gün Ağdam həm də turistlərin ən çox ziyarət etdiyi 20 ruhlar şəhərindən biridir. “Bir vaxtlar britaniyalı jurnalist Tomas de Vaalın kitabında “balaca Xirosima” deyə bir bənzətmə oxuyanda düşünmüşdüm ki, bu, şişirtmədir. Amma yox, şişirdilməyib. Ağdam xarabalığa çevrilib və bu, olduqca dəhşətli bir mənzərədir” – çex jurnalisti Petruşka Şustrovanın dediyi bu sözlər indiki Ağdamın canlı mənzərəsidir.

Minlərlə şəhid verən, məcburi köçkünlük taleyi yaşayan ağdamlıların torpaq sevgisi, Vətən məhəbbəti çox güclüdür. Düz 27 ildir ki, ağdamlıların könlündə bir ümid çırağı yanır. Bu gün artıq o ümid çırağı şölə saçır. Ağdam qayıdır. Ağdamlılar illərdir, həsrətində olduqları doğma torpaqlarına, yurdlarına qayıdırlar, ordumuzun qüdrəti, Ali Baş Komandanımızın qətiyyətli iradəsi ilə.

*Ulu öndərimiz Heydər Əliyev Ağdamda olarkən demişdi:* ***“Mən arzu edirəm ki, Ağdam gündən-günə çiçəklənsin. Həm şəhər, həm də kəndlər dastanlarda, şeirlərdə olduğu kimi, Azərbaycanın gözəl bağ-bağatlı guşəsi olsun. Qarabağsız, Ağdamsız Azərbaycan yaşaya bilməz!”.*** *Biz bu gün əminik. Əminik ki, hər bir sahədə Ata vəsiyyətini uğurla yerinə yetirən Prezidentimiz cənab İlham Əliyev işğaldan azad edilmiş digər şəhər və rayonlarımıza, o cümlədən Qarabağın canı Ağdama da yeni həyat verəcək, Ağdam diriləcək, Ağdam dirçələcək…*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Hamiliyə verilmiş ixtisasların tələbələri üçün tədbirlər olub

*Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyində Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası üzrə təhsil alan tələbələri üçün hamiliklə bağlı “Milliyətimizi, dini inancımızı və müasirliyimizi təcəssüm etdirən dövlət bayrağımız” mövzusunda açıq dərs keçilib.*

Dərsi giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət və mədəni irs şöbəsinin müdiri Gülbuta Babayeva əvvəlcə Azərbaycan Ordusunun zəfər yürüşünün parlaq qələbə ilə nəticələnməsi münasibətilə tədbir iştirakçılarını təbrik edib.

Qeyd edilib ki, mənəviyyatımızın, azad və müstəqil milli düşüncəmizin ən şanlı təcəssümü olan Azərbaycan bayrağı 1990-cı il noyabrın 17-də xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda əbədi yüksəkliyə qaldırılıb.

Çıxışda vurğulanıb ki, qürurunu yaşadığımız və bir zamanlar ilk dəfə Naxçıvanda dalğalanan üçrəngli bayrağımız bu gün artıq mədəniyyətimizin beşiyi olan qədim Şuşamızda da əzəmətlə dalğalanır.

Açıq dərsdə Dövlət Bayrağı Muzeyinin direktoru Rəmzi Hüseynovun “Milliyyətimizi, dini inancımızı və müasirliyimizi təcəssüm etdirən dövlət bayrağımız” mövzusunda çıxışı dinlənilib.

Dərs zamanı suallar cavablandırılıb, tələbələr Dövlət Bayrağı Muzeyinin ekspozisiyası ilə tanış olublar.

* * *

*Naxçıvan Dövlət Film Fondunda Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Azərbaycan rəssamları” mövzusunda mühazirə keçilib.*



Tədbirdə Naxçıvan Musiqi Kollecinin nazirliyin hamiliyinə verilmiş ixtisasların tələbələri iştirak edib. Naxçıvan Dövlət Rəsm Qalereyasının direktoru Hökümə Məmmədli çıxış edərək bildirib ki, təsviri sənətin ən qədim növlərindən biri olan rəssamlıq insan ruhunu oxşayan, insanın mənəvi aləmindəki daxili duyğularını ifadə edən sənət növüdür. Rəssamlıq sənətinin Azərbaycanda ən qədim nümunələri arasında eramızdan əvvəl VII-V əsrlərdən qalmış Qobustan qayaüstü təsvirləri, Kəlbəcər rayonunun Ayçınqılı və Pəriçınqıl dağlarındakı Tunc dövrünün başlanğıcına aid rəsmlər müstəsna əhəmiyyətə malikdir.

Qeyd edilib ki, bu gün Azərbaycanda, o cümlədən muxtar respublikamızda rəssamlıq sənətinə, rəssamlara yüksək diqqət və qayğı göstərilir.

Sonda “Azərbaycan rəssamları” adlı film nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Yarış keçirilib

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin atəş zalında “Qarabağ uğrunda Qələbə!” devizi altında atıcılığın tir növü üzrə ədliyyə könüllüləri arasında birincilik yarışı keçirilib. Yarışda nazirlikdə “Ədliyyə könüllüləri” proqramı istiqamətində qeydiyyata alınmış Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və beynəlxalq münasibətlər fakültəsinin Hüquqşünaslıq ixtisasının IV kurs tələbələri iştirak ediblər.

Məhkəmə Ekspertizası Mərkəzinin rəisi, ədliyyə müşaviri Rafiq Cəfərov belə tədbirlərin keçirilməsinin əhəmiyyəti və atıcılığın tir idman növü barədə ətraflı məlumat verib. Qeyd olunub ki, ordumuzun şanlı qələbəsinin sevincinin yaşandığı bu günlərdə gənclərin vətənpərvərlik hissinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Bugünkü tədbirin də məqsədi Qələbə sevincini tələbələrlə bölüşmək, gənclərə vətənpərvərlik və milli fəxarət hissi aşılamaqdan ibarətdir.

Sonra 10 tələbədən ibarət ədliyyə könüllüsünün iştirakı ilə yarışa start verilib. Gərgin idman mübarizəsi ilə yadda qalan birinciliyin qaliblərinə diplomlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayonu, Şəhriyar kənd sakini Rəhimov Rəhim İsa oğlunun adına verilmiş JN-306[A] nömrəli şəhadətnamə itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 870